# CƏMİYYƏTİN İNKİŞAFINDA KİTABXANALARIN ROLU: ƏSAS AMİL KİMİ

***Tutuxanım Çoban qızı Qubatova***
*AMEA Mərkəzi Elmi Kitabxana,*
*Nadir kitablar fondu, baş kitabxanaçı*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*tutuxanim.ahmedova@gmail.com*

***Açar sözlər:*** *kitabxana, informasiya, xidmət, fəaliyyət, cəmiyyət*
***Ключевые слова:*** *библиотека, информация, услуга, деятельность, общество*
***Keywords:*** *library, information, service, activity, society*

**Xülasə:** Müasir dövrdə cəmiyyətin inkişafında bir çox amillər mühüm rol oynayır. Texnologiya daim inkişaf edərək insanların gündəlik həyatına mühüm təsir göstərir. Cəmiyyətin inkişafına təsir edən əsas amillərdən biri və ən mühümü kitab və kitabxanalardır. Kitabxanalar cəmiyyət üçün mənəviyyat mənbəyidir.

Müasir dövrdə əsas əhəmiyyət kəsb edən kitabxana informasiya prosesi, texnologiyanın kitabxana fəaliyyətinə cəlb edilməsi, kitabxanaların fəaliyyət istiqamətləri məqalədə öz əksini tapmışdır. Kitabxanalar cəmiyyətin normal şəkildə inkişafını təmin edən mexanizmin ayrılmaz hissəsidir. Bunun əsasında dünyanın ən qədim və zəngin kitabxanaları dayanır.

Kitabın və mütaliənin mənəvi inkişafımızda rolu əvəzolunmazdır və mühüm əhəmiyyət kəsb edir. Kitabxanalar insanlara xidmət etdikcə cəmiyyətimiz inkişaf edir, dünyagörüşü artır, gənc nəslin intellektual səviyyəsi yüksəlir. AMEA Mərkəzi Elmi Kitabxanası məhz cəmiyyət qarşısında daima bu vəzifəni layiqincə yerinə yetirir. Mərkəzi Elmi Kitabxananın qapıları illərdir oxucuların, kitabsevərlərin, eləcə də daim elmi axtarışlar aparan alim və mütəxəssislərin üzünə açıqdır. Hər bir kəs burda kitabxananın ədəbiyyatlarından yararlana bilər. Bütün bunlar məqalədə ətraflı şəkildə əks olunmuşdur.

**Резюме:** В развитии общества в современную эпоху важную роль играют многие факторы. Технологии постоянно развиваются, оказывая существенное влияние на повседневную жизнь людей. Одним из основных и важнейших факторов, влияющих на развитие общества, являются книги и библиотеки. Библиотеки являются источником духовности для общества.

В статье отражены библиотечно-информационные процессы, имеющие первостепенное значение в современную эпоху, задействование технологий в библиотечной деятельности, направления библиотечной деятельности. Библиотеки являются неотъемлемой частью механизма, обеспечивающего нормальное развитие общества. Это основа старейших и богатейших библиотек мира.

Роль книг и чтение в нашем духовном развитии незаменима и имеет огромное значение. По мере того, как библиотеки служат людям, наше общество развивается, мировоззрение расширяется, а интеллектуальный уровень молодого поколения повышается. Центральная научная библиотека НАНА выполняет этот долг перед обществом. Двери Центральной научной библиотеки на протяжении многих лет открыты для читателей, любителей книги, а также ученых и специалистов ведущих научные исследования. Здесь каждый может воспользоваться литературой библиотеки. Все это подробно отражено в статье.

**Summary:** Nowadays many factors play an important role. Technology is constantly evolving and has an important impact on people's daily life. Libraries are an integral part of the mechanism

that provides normal development of society. Based on this the world's oldest and rich libraries are standing.The role of the book and reading in our spiritual development is irreplaceable and important. As libraries serve people, our society is developing, and the worldview is growing. The intellectual level of the young generation is rising. The doors of the Central Scientific Library is opening to the scientists and specialists, readers, book lovers, as well as scientific searches for years. Everyone can use the literature of the library here. One of the main factors affecting the development of society is books and libraries. Libraries are a source of spirituality for society. The library is the main importance process in modern times. So article deals with the importance of books for the society.

**Giriş:** İnsanların şəxsiyyət kimi formalaşmasında kitabların böyük tərbiyəvi, mədəni və mənəvi rolu vardır. Əlyazma və çap kitablarının qorunub saxlanılmasında, gələcək nəsillərə ötürülməsində, insanların dünyagörüşünün və intellektual səviyyələrinin artırılmasında kitabxanalar mühüm rol oynayır. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların xüsusi vəzifələri vardır. Bu vəzifələr günü-gündən daim artmaqdadır.

Tarixə nəzər salsaq, bütün dövrlər ərzində kitabxanalar xalqın yaratmış olduğu elmi, mədəni sərvət olaraq hər zaman bəşəriyyətin, cəmiyyətin işıqlı gələcəyinə, təhsilinə, maarifinə, elminə, tərbiyəsinə və mədəniyyətinə xidmət etmiş, elm, bilik, informasiya mənbəyi kimi sivilizasiyanın artaraq inkişaf etməsinə, yüksəldilməsinə zəmin yaratmışdır. Kitabxanalar həmişə cəmiyyətdə sosial tələbatı ödəmək və ictimaiyyətə xidmət etmək üçün yaranmış, daim inkişaf edərək təkmilləşdirilmişdir [5, s.24].

Bəşəriyyət sivilizasiya etdikcə daim insanlar elmə, biliyə, texnologiyaya, təhsilə böyük əhəmiyyət vermişdir. Kitabxanalar bəşəriyyətin elmi sərvətlərini toplayıb, qoruyub insanların istifadəsinə verərək elmin, iqtisadiyyatın, mədəniyyətin, kəşflərin tərəqqisi və inkişafı üçün zəmin yaratmışdır. Kitabxanalar cəmiyyətin mədəni sərvətlərinin, xalqların mədəni irsinin saxlayıcısı və gələcək nəsillərə ötürücüsüdür. Xüsusilə milli kitabxanaların fondunda müasirliklə yanaşı, keçmiş də qorunub saxlanılır. Onlar müasir dünyada elm, ədəbiyyat və mədəniyyətin təbliğatçısı, yayıcısı olmaqla yanaşı, keçmişin də təbliğatçısı kimi çıxış edir, informasiya yayırlar. Kitabxanalar mədəniyyətin mühüm sahəsi olaraq öz mədəni funksiyasını başqa mədəniyyət müəssisələri ilə qarşılıqlı əlaqədə yerinə yetirirlər [3, s.122].

Cəmiyyətin inkişafında kitabxanaların rolu çox mühüm və əvəzolunmazdır. Onlar təkcə kitab saxlamaq və oxumaq üçün məkan deyil, həm də maarifləndirmə, dünyagörüşünə sahib olmaq, mədəniyyətin qorunması, yayılması, ictimai tərəqqi və inkişafın rolu baxımından əhəmiyyətli mərkəzlərdir. Belə ki, AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) Azərbaycanın elmi, mədəni, sosial və intellektual həyatında böyük əhəmiyyət kəsb edən və xüsusi yerə malik olan bir qurumdur. Onun çoxşaxəli və əhəmiyyətli rolu hər zaman cəmiyyətin inkişafına təsir etmişdir. Elmi biliklərin toplanması, saxlanılması və yayılması, elmi irsin mühafizə olunması, maarifləndirici və mədəni tədbirlərin, konfransların keçirilməsi, rəqəmsallaşdırma və müasir texnologiyaların tətbiq edilməsi, xüsusilə beynəlxalq əməkdaşlıq, beynəlxalq elmi mübadilə Mərkəzi Elmi Kitabxananın əsas funksiyalarındandır və Azərbaycanın elm aləmində tanınmasına şərait yaradır.

Mərkəzi Elmi Kitabxanada alimlər, tədqiqatçılar, mütəxəssislər, tələbələr müxtəlif sahələr üzrə araşdırmalar edə bilər, elmi resurslardan istifadə edərək imkanlarını genişləndirirlər. Bu mərkəz Azərbaycanın zəngin elmi-mədəni irsinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Burada olan nadir kitablar, arxiv sənədlər, əlyazmalar, qiymətli nəşrlər milli və beynəlxalq elmin tarixi üçün böyük əhəmiyyət kəsb edir. Texnologiya inkişaf etdikcə Mərkəzi Elmi Kitabxanada son illərdə rəqəmsal kitabxana sistemləri yaranmış, elmi kitablara, nəşrlərə və məlumatlara onlayn şəkildə çıxış əldə edilmişdir.

AMEA Mərkəzi Elmi Kitabxananın iş fəaliyyəti bununla kifayətlənmir. Belə ki, MDB dövlətləri və digər xarici ölkələr, xüsusilə də qardaş dövlət olan Türkiyə ilə virtual görüşlər keçirilir, qarşılıqlı əməkdaşlıq edilir, bilavasitə kitabxanalararası virtual tədbirlərin tez-tez keçirilməsinə şərait yaradılır. Bütün

bunların nəticəsində Mərkəzi Elmi Kitabxanada kitabxana-informasiya sahəsində fəaliyyət yeni texnologiyaların tətbiq edilməsi və istifadəsi nəticəsində təkmilləşdirilir və bu yeni-yeni nailiyyətlərə zəmin yaratmış olur [4].

Mərkəzi Elmi Kitabxanada elmi konfranslar, sərgilər, müzakirələr təşkil olunur, tədbirlər keçirilir və ictimaiyi elm xadimləri ilə görüşlər təşkil olunur. Bütün bunlar elmi-mədəni sahədə maariflənlənməyə imkan verir. Milli mədəniyyət və intellektual inkişafın formalaşması və zənginləşməsi baxımından, eləcə də cəmiyyətin elmi-mədəni və maarifyönümlü tərəqqisinə mühüm təsir edən kitabxana daim təkmilləşdirilərək yeni-yeni layihələrə imza ataraq, təkmilləşir, cəmiyyətin inkişafında mühüm rol oynayır.

AMEA Mərkəzi Elmi Kitabxanası respublika elminə, mədəniyyətinə və onun tarixinə böyük töhvəsidir.

Belə ki, AMEA Mərkəzi Elmi Kitabxanasında belə bir ənənə vardır ki, hər ayın əvvəlində bir neçə gün "Açıq qapı" günləri keçirilir. Bu zaman oxuculara kitabxananın iş fəaliyyəti ilə, ayrı-ayrı şöbələrlə, nadir kitablarla, kitablardan necə istifadə etməli olduqları barədə məlumat verilir. Burada məqsəd kitaba, mədəniyyətə, mütaliəyə həvəsi, marağı olan hər kəsi kitabxananın fəaliyyət istiqamətləri, ayrı-ayrı zəngin fondları, oxuculara göstərilən xidmətləri ilə tanış etməkdir. Daha sonra oxucular fondlarda olan hər növ kitablarla tanış edilir, elektron kataloq vasitəsilə necə kitab əldə etmələri haqqında məlumat da verilir.

Müasir dövrümüzdə kitabxananın fəaliyyətinin inkişaf etdirilməsi, kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması üçün dünya ölkələrinin kitabxanaları ilə mütəmadi olaraq əlaqələr qurulur. Kitabxana fondlarının zənginləşdirilməsi, elektron kitabxanaların yaradılması, onların təhlükəsiz şəkildə qorunması və mühafizə edilməsi, kitabxana-informasiya sahəsində yeni innovativ layihələrin qurulması, proseslərin planlaşdırılması və həyata keçirilməsi kitabxananın elmi-metodiki fəaliyyətini təşkil edir.

**Nəticə:** AMEA Mərkəzi Elmi Kitabxananın fəaliyyəti Azərbaycan cəmiyyətində bilik, mübadilə iqtisadiyyatının, elmə, biliyə əsaslanan maarif və inkişafın daha da zənginləşdirilməsində, beynəlxalq əməkdaşlıqların yaradılmasında əvəzolunmaz əhəmiyyətə malikdir. Burada yaradılan könüllü fəaliyyətindən, mərkəzin gənclərə olan etimadından, onlara dəstəyindən bəhs etməmək olmaz. Müasir dövrdə könüllülük fəaliyyəti gənclərin cəmiyyətə inteqrasiya olunmasında, özlərinin sosial bilik, bacarıqlarının inkişafında və potensialında, eyni zamanda bunların üzə çıxarılmasında çox mühümdür. Mərkəzdə könüllülük fəaliyyətinin təşkil olunması gənclərə təcrübə qazanmaq, elmi-mədəni mühitdə biliklərə sahib olmaq və sosiallaşaraq şəxsi inkişaflarını təmin etmək üçün imkan yaradır. Həmçinin burada əsas məqsəd olaraq gəncləri elmi-mədəni cəmiyyətə, maarifləndirmə prosesinə cəlb etmək, gələcək karyeralarına töhfə verməkdir. Könüllülər burada təqdimat və sərgilərin hazırlanmasına, rəqəmsal arxivləşdirməyə, oxucu informasiya xidmətinin təşkilinə kömək edir, kitab fondlarının rəflərdə yerləşdirilməsi, elektron sistemə daxil olunması, elmi tədbirlərin təşkili və keçirilməsində texniki və təşkilati işlərdə fəaliyyət göstərirlər. Könüllülərin bu fəaliyyətləri onlara elmi mühitin bir hissəsi olmaq, gələcək fəaliyyətlərinə hazırlaşmaq, təşkilatçılıq bacarıqlarını təkmilləşmək imkanı yaradır.

## Ədəbiyyat


1. *Xələfov, A.A.* Kitabxana və cəmiyyət / Bakı, Azərnəşr, 2012. – 360 s.

2. *Kazımi, P.F.* İnformasiya mühəndisliyi / Bakı, BDU, 2018. – 290 s.

3. Azərbaycanda kitabxana işinin tarixi: ən qədim dövrdən XX əsrə qədər, 2 hissədə dərslik: I hissə, II hissə. BDU, 2004. 328 s.

4. Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxana. Rəsmi internet saytı. https://mek.az

5. *İsmayılov, Xəlil.* Azərbaycan kitabxanalarının inkişaf tarixi /Bakı, Elm və Təhsil nəşriyyatı.-2019.-s.416.